

# 20 Yanvar ağrısından, 20 Yanvar qeyrətindən doğulan azadlıq

*İbrahim Yusifoğlu*
*AYB və AJB-nin üzvü, Prezident mükafatçısı, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı.*

**Şaxta yaman sərt kəsir,**
**Külək bərk tüğyan edir.**
**Bakı qara don geyir,**
**Qara Yanvara gedir**

**Moskva şər-şamata,**
**Bizlərə böhtan deyir.**
**Aranı qata-qata**
**Qara Yanvara gedir**

**Bakıdakı qəsdlərin**
**Niyyəti deyildi sirr.**
**Xalq unudub dərdlərin**
**Qara Yanvara gedir.**

**Qış günündə Xəzərdə**
**Gəmilər haray edir.**
**Döyüşkən dalğalarla**
**Üzü yanvara gedir**

**Yad diyardan vəhşilər**
**Silahla hara gedir?**
**Bu cəlladlar Bakıya**
**Qara Yanvara gedir.**

**Ağ mərmər binadasa**
**Şeflər bir-birin didir.**
**Vəzifədən bərk tutub**
**Qara Yanvara gedir.**

**Tanrım, sən özün saxla,**
**Xalq gedir, dara gedir.**
**Bağla, bu yolu bağla,**
**Qara Yanvara gedir!**

İnam! İllər boyu qəlbimizə hakim kəsilən, bizi xalqlar dostluğuna inandıran, sərhəd, millət məfhumlarını ürəyimizdən silməyə çalışan güclü qüvvə! Bu inamın gücü ilə verdiyimiz sərvətin əvəzinə aldığımız qəpik-quruşlar olub, bilməmişik! Əvəzimizdən yazıb-pozublar, dinməmişik!

1985-ci ilin ”aşkarlıq” və ”demokratiyası” çox eyibləri üzə çıxartdı. ”Böyük Ermənistan” xülyaları ilə yaşayan qonşularımız daşnak babalarının bəd niyyətlərini həyata keçirmək üçün müqəddəs torpaqlarımıza qəsd hazırlamışlar.

Demə, varımızı yeyənlər, donumuzu geyənlər dar ayaqda bizə böhtanlar atacaq, haqq səsimizi boğacaqlar. İlahi, on illər boyu inandığımız mərkəzi orqanlar - ”Pravda”, ”İzvestiya” qəzetləri, ”Zaman” televiziya proqramı, ”Mayak” radiosu eyni bir dirijorun çubuğu ilə idarə olunurmuşlar, bizə yalanlar yedirirmişlər...

20 Yanvar 1990-cı il... İllər boyu üzərimizə tuşlanan silahların tətikləri çəkildi. Sinəsi odlananlar da oldu, şəhid olanlar da. Mənim isə inamım güllələndi!

**Gözüm görə-görə, haqq deyə-deyə,**
**Yurduma xəyanət, qəsd eylədilər.**
**Sülhə, göyərçinə, süni hər şeyə,**
**”Qardaşlıq beşiyi” Sovet elinə,**
**Olan inamları güllələdilər.**

20 Yanvar 1990-cı il - Azərbaycan xalqının XX əsrdə başına gətirilən və oxşarı olmayan faciənin tarixi...

20 Yanvar - günahsız insanların vəhşicəsinə şəhid olduğu gün! Xalqımızın taleyinə yazılan bu qara səhifə hər bir insanın qəlbini sarsıtdı, sinələrə sağalmaz dağlar çəkdi. Lakin qanına susamış insanlıqdan bixəbərlər o gecədə törətdikləri ağrıları, acıları duya bilmədilər.

20 Yanvar - o gecə neçə ana oğlunu, əllərindən xınası getməyən gəlinlər ərlərini, nişanlısının vüsalına qovuşacağı günü həsrətlə gözləyən ismətli bacılarımız sevgililərini, körpə balalar valideynlərini, dağ vüqarlı atalarımız qızını, oğlunu itirdi.

Beləcə, tarixlər boyu sinəmizə çəkilən sağalmaz yaralara daha biri əlavə olundu - 30 ildir ki, təqvimin ilk ayına qara rənglə yazılan 1990-cı ilin 20 Yanvar günü! Bu gün ən ağrılı, ən dəhşətli günümüz olsa da, xalqımızın milli vüqar, milli qürur günü kimi tariximizə düşdü. Həm də ”böyük qardaş” bildiyimiz, varımızı-sərvətimizi hədiyyə etdiyimiz bir dövlətin iç üzü açıldı həmin gün.

SSRİ adlanan dövlətin Müdafiə Nazirliyinin, Dövlət Təhlükəsizlik Komitəsinin və Daxili İşlər Nazirliyinin xüsusi qoşun hissələri Bakıya yeridildi. Dinc əhaliyə qarşı misli görünməmiş cinayətkarlıq hərəkəti törədildi 1990-cı il yanvar ayının 19-dan 20-nə keçən gecə!

O gecə artıq dirəkləri laxlamaqda olan imperiyanın qoşunları tərəfindən amansızlığına görə ən dəhşətli olan qətl hadisəsi törədildi.

Gözə dəyən hər kəsə atəş açıldı, sərnişin daşıyan avtobuslar, taksilər, hətta təcili yardım maşınları tankların tırtılları altına salınıb xıncım-xıncım edildi, yaşayış binalarına, tibb müəssisələrinə müxtəlif çaplı silahlarla fasiləsiz atəşlər açıldı.

**20 Yanvar... Sübh çağı...**
**İçdik namərd zəhərini...**
**”Şanlı Sovet qoşunları”**
**Qırıb Bakı şəhərini!**

**Dağ çəkiblər sinəsinə,**
**Dünya belə dağ görməyib!**
**Kim qoşulub haqq səsinə,**
**Öz canını sağ görməyib!**

**Qan ediblər gecə yarı,**
**Nə vecinə özgə, yadın.**
**Dəhşətə bax, Ulu Tanrı,**
**Güllələnib uşaq, qadın!**

**Haqq səsinə səs qatanlar,**
**Səhv addımlar atmayıblar.**
**Evlərinə can atanlar,**
**Qapısına çatmayıblar.**

Həmin gün səhər tezdən isə imperiya əlaltıları olan ermənilər havadarlarının köməyi ilə Odlar Yurdu Azərbaycanın Naxçıvan Respublikasının sərhəd boyu kəndlərini, ən çox isə Sədərəyi top və raketlərdən atəşə tutudular, evlər dağıdıldı, övladlarımız şəhid oldular. Lakin, mərd, igid oğul və qızlarımızın torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanmaları, misilsiz şücaətləri sayəsində xain qonşuların bütün həmlələri dəf edildi, düşmənin arzusu ürəyində qaldı...

Dünyaya göz açdığımız andan ilk sədamız, dünyadan köçdüyümüz anda son nidamız sənin böyüklüyünə, əbədi varlığına şükr etməyimizdir, Ulu Tanrı! ”Allahdan başqa Allah yoxdur” müqəddəs kəlamını həmişə uca tutmuşuq, bəndələrinə məsləhət gördüklərinin arxasınca getmişik. Bir olan Allahın mərhəməti nəticəsində həyatda düz və pak olmağa, özgə malına, yad torpaqlarına göz dikməməyə, insanlara xəyanət və yamanlıq etməməyə, özümüzə bir pay, qonşuya iki pay istəməyə həmişə adət etmişik. Bəs günahımız nə idi ki, çox vaxt düşmənlərlə üz-üzə gəlmişik, Ulu Tanrı? Dağ vüqarlı, el qeyrətli, torpaq canlı igidlərimiz sinələrini yağı gülləsinə sipər ediblər, Vətən yolunda şəhid olublar. Elimiz-obamız yad ayaqları altında tapdağa dönüb, viranə qalıbdır. Misilsiz sərvətlərimiz yad əllərə daşınıb, torpaqlarımıza Qorqud Dədəmizin verdiyi adlar dəyişdirilib, özgələşibdir. Bütün bu dərdlər, əzablar, işgəncələr azmış kimi ”Qara Yanvar” faciəsi ilə şırım açdılar sinəmizdə, yeni faciələr yazıldı tariximizə.

Qar yağanda sevinmişik - baharda torpağımız bərəkətli, düzlərimiz laləli olacaq, - demişik. Qarın ağlığı xəyalımızı ağ günlərə aparıb, sevinmişik. Bəs niyə torpaqlarımıza qırmızı qarlar yağdı? Qırmızı qar! 1990-cı ilin 20 Yanvarında şəhidlərimizin qanına boyanan qar! Bakı şəhərində, gözəl Qarabağımızda, Sədərəkdə ”yağan” qırmızı qar!

Sinəmizə çəkilən şəhid dağlarının ağrısı 30 ildir ki, ürəyimizi göynədir. Həmin qanlı tarixdə Vətən torpağını, el qeyrətini canından artıq tutan oğul v qızlarımız əbədiyyətə qovuşdular. Şəhid məzarları göyərdi torpaqlarımızda. Onlar bu gün heykəlləşib, ömürləri nəğməyə, şeirə dönüb, böyüyən nəslin dodaqlarında yaşayır.

Müqəddəs torpaqlarımızı canlarından da artıq sevən, onu işğalçılardan qorumağa qalxan el oğulları, mərd qızlarımız, biz də sizin qarşınızda olan borcumuzu yerinə yetirəcəyik. 20 Yanvar hadisəsindən illər keçsə də, hər kim necə olub, necə döyüşüb, gələcək nəsillərə çatdıracağıq:

**Bilirik, bu xalqın baş komandanı,**
**Çəkilmiş sədləri tam yaracaqdır.**
**Vətən torpağını ölümsüz, qansız,**
**Bu xalqın özünə qaytaracaqdır**

Və şəhidlərə ünvanlanan müdrik kəlamlar səslənir başımızın üstündən:

**Şəhid məzarları yurdun qeyrət ünvanı, xalqın baş ucalığıdır.**

**Şəhidlər Allahın bəxtəvər bəndələridir.**

**Sorğusuz, sualsız cənnət evinə girmək ən böyük mərhəmətdir.**

**20 Yanvar gecəsində Azərbaycanın azadlığı uğrunda mübarizəyə qalxıb canlarından keçənlər tarixə öz adlarını qızıl hərflərlə yazdılar.**

**Şəhid məzarı qara torpaq üzərində çıraq kimi yanar. Şəhid məzarları yurdun qeyrət rəmzi, xalqın baş ucalığıdır.**

**Qoynunda bu qədər şəhidlərin varsa, sabahın üçün heç bir narahatlığın olmasın. Belini şax tut, can Azərbaycan!**

**Azərbaycanın azadlığı 20 Yanvar ağrısından, 20 Yanvar qeyrətindən doğuldu.**

Azərbaycan o gecə yüzlərlə övladını itirdi. Amma tarixin bu sınağından alnıaçıq, üzüağ çıxdı. 30 il öncə xalqın göz yaşı ilə yaşadığı günlər indi öz mahiyyətini dəyişərək qürur günü kimi anılmaqdadır.

”20 Yanvar faciəsinin otuzuncu ildönümü haqqında” Respublika Prezidentinin 13 dekabr 2019-cu il tarixli sərəncamında qeyd olunduğu kimi 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş anma mərasimləri Respublikamızın ərazisində və ölkəmizin hüdudlarından kənarda 20 Yanvar ağrısından, 20 Yanvar qeyrətindən doğulan azadlıq kimi qeyd olunur...

Ədalət.- 2020.- 16 yanvar. S. 7.